TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

İqtisadi Əməkdaşlıq Komissiyası

Tövsiyə Qərarı

COM/EC/REC/001/FINAL

**ALTINCI İCLAS**
*27 Sentyabr 2018, Ankara*

# TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ İNNOVATİV SAHİBKARLIQ PERSPEKTİVLƏRİ

İnnovasiyalara investisiyaların nəzəri və praktiki tədqiqi aşağıdakı nəticələrin alınması və təkliflərin verilməsinə imkan yaradır:

• Bu gün, TÜRKPA üzv ölkələrinin investisiya siyasətinə yeni yanaşmalar ölkələrin iqtisadiyyatında zəruri struktur dəyişikliklərinin həyata keçirilməsi və onların üzləşdiyi təhdid və risklərə adekvat cavab verilməsi baxımından mühüm alətdir. Bu yanaşmalardan biri ilkin diqqətin artan investisiya həcminə deyil, innovativ orientasiyanın investisiya resurslarının struktual şaxəliliyinin keyfiyyət və genişlənməsində aparıcı təkmilləşdirilməyə verilməsidir.

• İnnovativ investisiyalar istehsal fəaliyyətində kəmiyyət və keyfiyyət artımına gətirib çıxaran innovativ resursların çoxalmasına qoyulmuş və ya artıq innovasiya formasında (texnika, texnologiya, yeni keyfiyyətlərə sahib yeni personal, informasiya resursları, intellektual resurslar və s.) olan çoxalma prosesinə cəlb edilmiş vəsaitdir.

• TÜRKPA üzv ölkələrinin kiçik və orta sahibkarlıq (KOS) üçün innovativ texnologiyalar sahəsində prioritetlərinin həyata keçirilməsi nəticəsində, iqtisadiyyat, vergi, elm və təhsil sahələrində TÜRKPA-ya təkliflərin verilməsi vasitəsilə hər üzv ölkənin parlament səviyyəsində normativ və qanunvericilik çərçivəsi uyğunlaşdırılmalıdır.

• İnvestisiya və innovasiya sahəsinin təşkili və təşviqi üçün aşağıdakı dövlət dəstəyi üsulları istifadə olunmalıdır: birbaşa maliyyələşdirmə, üstün şərtlərlə büdcə kreditlərinin verilməsi və vergi üstünlüklərinin yaradılması, bəzi növ ixtiralar üçün patent ödəmələrinin təxirə salınması, sürətli qiymətsizləşdirmə və s.

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

• TÜRKPA üzv ölkələrində innovativ istehsal sahəsində hüquqi çərçivənin təkmilləşdirilməsi məqsədilə, TÜRKPA İqtisadi Əməkdaşlıq Komissiyası üzvləri və müvafiq ekspertlərin innovativ və yüksək texnologiyaların inkişafında lokomotiv rolunu oynayan tematik beynəlxalq iqtisadi forumlara göndərilməsi mühüm əhəmiyyət kəsb edir. Bu müasir zamanın tələbidir.

• İnvestisiya və innovasiya fəaliyyətlərinin aktivləşdirilməsi üçün mühüm mexanizm aşağıdakılardan ibarətdir:

- Vençur fondlarla yanaşı, sığorta şirkətləri və kommersiya banklarını da cəlb edən vençur maliyyələşdirmə;

- Bütün regionlarda əlverişli investisiya mühitinin yaradılması, belə ki, ölkə iqtisadiyyatında cəlbedici və məqsədəuyğun investisiya iqtisadi, sosial, siyasi, hüquqi, təşkilati və digər şəraitlərdən asılıdır;

- Tədqiqat və inkişaf (T&İ) dəyərinin yüksəldilməsi, istehsala məhsul innovasiyasının tətbiqi ilə sahibkarlıq müəssisələrinin əsas vəsaitinin yenilənməsinin artırılması məqsədilə vergi yükünün azaldılması yolu ilə müəssisələr üçün əlverişli iqtisadi mühitin yaradılmasına istiqamətlənmiş vergi güzəştləri sistemi;

- Yüksək texnologiyalar sahəsində inkişafla əlaqəli olan innovativ layihələrin maliyyələşdirilməsi;

- İntensiv elmi təchizat və qurğularının icarəyə götürülməsi üçün kapitalın mobilizasiyası;

- Büdcə fondları hesabına investisiya və innovasiya proqramları və layihələrinin həyata keçirilməsində kiçik biznesin iştirakının dəstəklənməsi;

- Mühəndis və texniki heyət, eləcə də üzv ölkələrin tədqiqat və inkişaf institutları heyətinin qabaqcıl təlimləri;

Bütün yuxarıda qeyd olunanlar üzv ölkələrin ümumi İnvestisiya Təşviqi və Dəstək Proqramı çərçivəsində nəzərdən